**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 98**

**Bakı şəhəri, 14 mart 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 5 fevral tarixli 37 nömrəli, "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 2016-cı il 16 dekabr tarixli 517 nömrəli və "Fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması"nın təsdiq edilməsi haqqında" 2017-ci il 29 dekabr tarixli 619 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379, № 7, maddə 1342, № 11, maddələr 1965, 1976, № 12, maddə 2239; 2018, № 8, maddələr 1793, 1795; Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2018-ci il 13 dekabr tarixli 534 nömrəli və 2019-cu il 21 yanvar tarixli 21 nömrəli qərarları) ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nın 5.5.1-ci yarımbəndində “müvəqqəti ictimai” sözləri “haqqı ödənilən ictimai” sözləri ilə əvəz edilsin.

2. “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli 517 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2234; 2018, № 4, maddə 796, № 9, maddə 1947) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11-ci hissəyə “işaxtaran” sözündən sonra “və işsiz” sözləri əlavə edilsin və həmin hissədə “vətəndaşları” sözü “şəxsləri” sözü ilə əvəz edilsin;

2.2. 18-ci hissəyə “işaxtaran” sözündən sonra “və işsiz” sözləri əlavə edilsin və həmin hissədə “vətəndaşların” sözü “şəxslərin” sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 619 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2564; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 dekabr tarixli 534 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənddə “işsizin” sözü “işsiz şəxsin” sözləri ilə əvəz edilsin;

3.2. 4.3-cü bənddə “təsdiq” sözü “təqdim” sözü ilə, “verilir” sözü “qəbul edilir və ya fərdi məşğulluq proqramında dəyişiklik edilməsinə dair tədbir görülür” sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**